# DÜNYA BOYDA SEVGİ

**Bir gülü, bir çiçəyi, bir otu, bir ağacı sevməyə nə var ki?! Oğul odur ki, içində təlatüm edən və heç vaxt ona dinclik verməyən dərdi, kədəri, ələmi sevə bilsin... oğul odur ki, hər yerdən əli üzüləndən sonra ayağa qalxmağı bacarsın və özünü tapa bilsin... oğul odur ki, tək Vətəni, ailəsini, balalarını, nəvələrini sevməsin... dünyanı və dünyanın içində olan bütün eybəcərlikləri, bütün sıxıntıları və bütün görünməyən qüvvələri də sevməyi bacarsın...**

Allahı sevmək o deyil ki, gündə beş dəfə namaz qılasan, oruc tutasan, yaxud da müqəddəs Məkkəni ziyarət eləyəsən. Allahı sevən adam odur ki, bir acın qarnını doydurur, bir yıxılanın əlindən tutub ayağa qaldırır, bir xəstənin sağalmasına yardım edir, bir yetimin və kimsəsizin haqqını başqasına vermir və o yetimin arxasında durur, saçına sığal çəkir! Bax, bunu yalnız və yalnız Allahı sevən adamlar bacarırlar.

### *Yaxın dostum,*

böyük ziyalı, böyük müəllim və istedadlı şair-publisist Səməndər Məmmədovun yenicə çapdan çıxmış "Ömrüm boyu yanılmadım" kitabında da bu dediyimiz elementlər, bu sadaladığımız cizgilər var. Onun hər şeirində, hər misrasında, hər sətrində böyük bir Allah sevgisi, böyük bir Allah məhəbbəti hiss olunur. Onun poeziyasında qırmızı xətt kimi bir fikir özünü daha qabarıq göstərir: "Kim olursan ol, öncə Adam və İnsan ol!" düşüncəsi oxucunu həmişə düşündürür. O şeir ki, o poeziya ki, oxucunu düşündürür, demək orda böyük sevgi, böyük məhəbbət və böyük həyat eşqi var.




***Səməndər Məmmədovun bu kitabı şərti olaraq dörd hissəyə bölünüb: "Mündəricat", "Ay Səməndər, haqqa inan", "Bilirəm yerini, ürəklərdəsən", "Faxralıdı inamı da, imanı da"... Birinci bölmədə bu yazılar diqqəti daha çox özünə cəlb edir: "Güc təhsildədir", "Qorqudşünas alim", "Elmin yolunda ağaran saçlar", "Oğullar yetirdin, el-el tanındı", "Çağlayır ilhamın, ay Həmzə qağa", "Nur parlayan çıraq"... İkinci bölmədə onun yazdığı şeirlər yer alıb: "Millət sevgisi", "Bilər", "Ana", "Ocaq", "Faxralı", "Nur tökə-tökə", "Söz fatehi Zəlimxan", "Bağban", "Əhsən", "Torpağa bağlı", "Ey insanlar"... Üçüncü bölmədə isə diqqəti bunlar cəlb edir: "Mənim tanıdığım Səməndər", "Həqiqi müəllim, xeyirxah insan", "Qırx ilin dostluğu", "Dost sevinci"... Dördüncü bölmədə isə bu yazılar yer alıb: "Olsun", "Səməndər", ""Müəllim", "Qardaş", "Yüz yaşa", "Bulaq kimi", "Gur işıq", "Qeyrət toplusu", "Vətənsiz könlüm pərişan"...***

### *Qələmə alınan*

bu yazıların arasında portret oçerklər də var, gözəl şeirlər də və Səməndər müəllim haqqında onu tanıyanlar tərəfindən qələmə alınan orijinal, maraqlı yazılar da. Onun hər bir yazısında, hər bir misrasında dünya boyda bir sevgi var.

O sevgini hiss etmək üçün, duymaq üçün gərək Səməndər Məmmədovun poeziya dünyasına qədəm qoyasan və bu böyük məhəbbəti, bu böyük sevgini hiss edəsən. O böyük ürəyə və o böyük qəlbə yalnız böyük ürək sahibləri yaxın ola bilər.

Görün şair nə deyib:

***Ömrüm boyu yanılmadım,***
***Dost-tanışı seçən yerdə.***
***Qanadlanıb uçar könül,***
***Ürək alov saçan yerdə.***

Həqiqətən də böyük ziyalı Səməndər Məmmədov heç vaxt dost seçəndə də, ömür-gün yoldaşı tapanda da, ən çətin vəziyyətlərdən çıxmağı bacaranda da yanılmayıb, səhv etməyib. Çünki Səməndər müəllim hamını duru, təmiz, pak və səmimi görmək istəyib. Özü olduğu kimi göründüyü üçün başqalarından da yoldaşlıqda, dostluqda, qonşulqda da bunu umub. Əgər bu dediyimiz məziyyətlər hansı adamda varsa, deməli o, Səməndər müəllimin böyük dostudur.

Yadıma söz fatehi, Xalq şairi Zəlimxan Yaqubun Səməndər müəllim haqqında dediyi sözlər düşür: "Təhsilimizin, maarifimizin, şeirimizin, sözümüzün səməndəri, pərvanəsi qardaşım Səməndər!

### *Sən mənim elimin*

çox mərifətli oğlusan, çox böyük ürək sahibi olan gözəl bir insansan. Saçından dırnağına qədər şeirsən, şeiriyyətsən, sazsan, qara zurnasan, Faxralısan, Borçalısan, Azərbaycan təbiətisən, türk danyasısan. Sənin haqqında hər şey demək olar. Mən müəllim ailəsində doğulduğum üçün bilirəm ki, məktəb Məkkədir, müəllim peyğəmbərdir, qələm Allahın danışan dilidir, kitab Qurandır, mütaliə Allah işığıdır. Müəllim elmlə doludur. Allah hərəyə bir qismət verib. Ən böyük qisməti, ən böyük hüququ müəllimə verib. Müəllim həyalı, ismətli, abırlı, əl qabarı ilə, alın təri ilə, gözünün nurunu kitablarda kor eləyə-eləyə, elm oxuya-oxuya, elm öyrənə-öyrənə, elm öyrədə-öyrədə milləti tərbiyə eləyən ilahi bir varlıqdır.

Onun ailəsi sazın telləri kimi nizam olmalıdır. O sazın doqquz telinin doqquzu da nizam olmalıdır ki, istədiyin vaxt istənilən havanı çala biləsən. Mənim Səməndərim həmişə belə nizam kökdə olsun. Mənim Səməndərim qoy məclislərin yaraşığı olsun, könlümüzə layla çalsın, ruhumuza layla çalsın ". Böyük Zəlimxan Yaqub böyük ziyalı Səməndər Məmmədova şair kimi, publisist kimi və böyük insan kimi belə dəyər verib. Çünki Səməndərin qanı dupdurudur, tər-təmizdi və əsl türk oğlu türkdür. Təpədən- dırnağa nur, işıq və sevgi olan Səməndər müəllimin bütün poeziyasında və şeirlərində bu dediyimiz duyğular var. İnanmırsınız,



onun Faxralı haqqında yazdığı şeirinin iki bəndinə diqqət yetirək:

***Qartalqonmaz dağlarını anıram,***
***Sönməmişəm, qucağında yanıram.***
***Səngərində duruş tapan mamıram,***
***Əzəl andım, son məkanım Faxralı.***

***Ağır elsən, Borçalıda adın var,***
***Yananın var, yamanın var, yadın var.***
***Səməndərə həyat verən odun var,***
***Od tutub odunda yanım, Faxralı.***

Bax, torpağa, elə, obaya, Vətənə Səməndər müəllim belə bağlı ziyalıdır. O öz elinin, obasının və doğma Faxralısının yolunda şəhid olmağa da hazırdır. Çünki o, bütün qəlbiylə, bütün ürəyilə və bütün sevgisiylə boya-başa çatdığı bu elə, bu obaya bağlıdır...

**Mənə elə gəlir ki, dünyada iki böyük sevgi var: biri Allah sevgisi, biri də Vətən sevgisi! Və hər iki sevgi bəşəri bir sevgidir. Düzdür, ana da var, ata da var, övlad da var, nəvələr də var. Bunlar da böyük sevgidir. Amma lazım gələndə ata da, ana da, oğul da, nəvə də Allahın və vətənin yolunda şəhid olur. Bu bəşəri sevgi, bu bəşəri məhəbbət Səməndər Məmmədovun bütün şeirlərinin hər misrasında duyulur və hiss edilir.**

### *Vətəni hamı çox sevir*

Mən də dəfələrlə bu fikri səsləndirmişəm. Amma Səməndər müəllim kimi elini, obasını, vətənini sevən ziyalılara az-az rast gəlmişəm.

İnsan havasız, balıq susuz, təbiət günəşsiz yaşaya bilmədiyi kimi, Səməndər müəllim də Faxralısız yaşaya bilmir. Bir də eşidirəm ki, gedib öz elinə, obasına və on-on beş gün qonşuluqda görünmür. Sonra da görüşəndə deyir ki, müəllim, Faxralıya getmişdim, heç qayıtmaq istəmirdim.

Oranın havasını uddum, suyunu içdim, torpağının üstündə gəzdim, gülünün-çiçəyinin ətrini ciyərlərimə çəkdim, indi özümü lap yaxşı hiss eləyirəm.

Səməndər Məmmədovun bir-birindən gözəl şeirləri çoxdur. Onlardan nümunə gətirib oxucunu çox da yormaq istəmirəm. Bir onu bilirəm ki, Səməndər müəllim Allahı sevdiyi qədər balalarını və nəvələrini də çox sevir. Onun "Həyatımdır nəvələr" şeirilə yazıma nöqtə qoymaq istəyirəm:

***Tural, Ramil varlığım,***
***Hərəsi bir barımdır.***
***Günay, Elmira, Nicat,***
***Yaşıl budaqlarımdır.***

***Ayxan alovum, odum,***
***Heyran edir hər kəsi.***
***Şirin-şəkər, noğuldur,***
***Balımdı hər kəlməsi.***

***Səməndər Məmmədliyəm***
***Zirvəmdəki qarımdır.***
***Nəvələrim həyatım,***
***Əyilməz vüqarımdır.***

**Faiq QİSMƏTOĞLU**